# TİBBİ (KLİNİKİ) PSİXOLOGİYANIN MÜASİR NƏZƏRİYYƏLƏRİ

## FREYDİN NƏZƏRİYYƏSİ VƏ PSİXODİNAMİKANIN ƏSASLARI

«Ziqmund Freyd — ayrılıqda tək bir şəxsin şücaəti bəşəriyyəti daha şüurlu etsə də, daha xoşbəxt etmədi. O, bütöv bir nəsil üçün dünyanın mənzərəsini dərinləşdirmiş, lakin bununla belə gözəlləşdirməmişdir». - Stefan Sveyq.

«insanlar böyük ideyanı müdafiə edərkən qüvvətli olurlar, onun əleyhinə getdikdə isə gücsüzləşirlər». — Ziqmund Freyd.

Elm aləmində müəyyən dövrlərdə elə hadisələr baş verir ki, onlar dünyanın mənzərəsi haqqında əvvəlki təsəvvürləri alt-üst edir və elmi fikrin sonrakı inkişafını müəyyənləşdirirlər. Belə hadisələrdən kimyada *Lavuazyenin konsepsiyasını,* biologiyada *Darvinin «Təkamül» təlimini*, fizikada *Eynşteynin «Nisbilik» nəzəriyyəsini,* riyaziyyatda *LütUzadənin «Qeyri-səlis məntiq nəzəriyyəsi»ni* xatırlaya bilərik. Lakin heç bir elmi cərəyan freydizm kimi öz fənni çərçivəsindən kənarda belə böyük şöhrət qazanmamışdır. Psixoanalitik nəzəriyyə psixi proseslər haqqında o dövrə qədər hakim olmuş baxışları bütünlüklə dəyişdirmiş və bununla yanaşı fəlsəfə, antropologiya, ədəbiyyat və incəsənətə güclü təsir göstərmişdir. Təkcə onu demək kifayətdir ki, yazıçılardan S.Sveyq, C.Oldric, rəssamlardan P.Pikasso, S.Dali, rejissorlardan C.Kokto və M.Forman kimi dahi sənətkarların yaradıcılığında Freydin ideyaları dərin iz buraxmışdır.

Bəs psixoanalizin gücü və təsiri nədədir? Bu suala cavab tapmaq üçün Freydin tərcümeyi-halına nəzər salmaq lazımdır.

Ziqmund Freyd 6 may 1856-cı ildə Avstriya-Macarıstan imperiyasının ərazisində yerləşən Freyburq (indiki Çexiyanın Prşbor şəhəri) şəhərciyində anadan olmuşdur. O, 1873-cü ildə Vyana universitetinin tibb fakültəsinə daxil olmuşdur. Eyni zamanda o, təhsillə yanaşı 5 il müddətində Fiziologiya institutunda görkəmli alim Ernest Brükkenin bilavasitə rəhbərliyi altında işləmişdir. Hələ o, illərdə neyrofiziologiya sahəsində bir sıra kəşflər etmiş gənc Freyd özünü istedadlı alim kimi tanıtmışdır. 1881-ci ildə tibb diplomu aldıqdan sonra Freyd dörd il müddətində praktik həkim kimi işləyir və görkəmli psixiatr T.Meynertin başçılıq etdiyi psixiatriya klinikasında təcrübə keçir. 1886-cı ildə Freyd ezamiyyət stependiyası almağa müvəffəq olur və Parisin Salpetrier klinikasına yola

düşür. Bu illərdə həmin klinikada məşhur fransız psixiatrı Şarko isteriya sahəsində maraqlı tədqiqatlar aparırdı. Salpetrier klinikasında Freyd nevrozların öyrənilməsində Vyana məktəbinin mexanistik təsəvvürlərindən köklü şəkildə fərqlənən yeni baxışlarla tanış olur. Belə ki, Almaniya və Avstriyada hakim olan təsəvvürlərə görə sinir sistemi maddi bir orqan olduğundan nevrozlar zamanı meydana çıxan patoloji dəyişikliklərin də maddi səbəbi olması güman edilirdi. Bunu rəhbər tutaraq, nevrozların müalicəsində fiziki metodlara (fizioterapiyaya) üstünlük verilirdi. Fransada isə Şarko öz təcrübəsinə əsaslanaraq, nev- rotik pozuntuların izaha ehtiyacı olduğunu israr edirdi. Sübut kimi o, psevdoiflicin anatomik innervasiya zonalarına uyğun gəlmədiyini göstərirdi. Eyni zamanda psixoloji müalicə metodlarının (hipnozun) Freydin adət etdiyi fizioterapiyadan xeyli səmərəli olduğu aşkara çıxdı.

Bir dəfə Şarko öz tələbələrinə ağır nevrozlu xəstə qadın haqqında danışarkən, xəstəliyin həmin qadının ərinin impotensiyası ilə əlaqədar ola bilməsi ehtimalını söyləmişdir. Tələbələrdən biri deyilənlərə şübhə ilə yanaşdıqda, Şarko onun cavabında bir çox hallarda nevrozların seksual sfera ilə bağlı olduğunu bildirmişdi. Bu söhbətin şahidi olan Freyd müəlliminin sözlərini yaxşı yadında saxladı. Axı o, özü də nevrozların seksual faktorlardan asılılığını dəfələrlə müşahidə etmişdi.

Hipnoterapiyanı daha dərindən öyrənmək məqsədi ilə Freyd Nansi şəhərinə gəlir və Brenheymlə tanış olur. Nansidə Freyd ilk dəfə şüur sferasından kənarda olan naməlum psixi proseslərin mövcudluğu haqqında düşünməyə başlayır. Məhz bu naməlum proseslər nevrozlu xəstələrdə rast gəlinən pozuntulara səbəb ola bilərdi.

Hipnozla məşğul olarkən Freyd vyanalı həkim Iosif Breyerlə tanış olur. O, Freydə öz pasiyenti - cavan bir qız haqqında söhbət açır. Bre- yer həmin qızın özü haqqında danışmaq imkanı tapdıqda vəziyyətinin yaxşılaşdığını müşahidə etmişdi. Eyni zamanda Breyer göstərir ki, həmin xəstə həyatında baş vermiş bir sıra hadisələrin üstündən keçir, sanki bildiklərindən utanır və onları özündə saxlamağa çalışır. Hipnoz halına salınmış qıza xəstəlik ərəfəsində baş vermiş hadisələri xatırlamaq təklif olunduqda məlum olmuşdur ki, o, xəstə atasına qulluq edərkən güclü seksual hisslər keçirmişdir. Sonralar bu hisslər yaddaşdan silinmişdir. Bu unudulmuş hisslər sonradan nevrotik simptomlarda özünü büruzə vermiş və həmin hisslər dərk edildikdən sonra xəstəlik əlamətləri keçib getmişdir. Bu müalicə metodu «katarsis» *(katarsis - yunanca təmizlənmə deməkdir.)* terapiya adını almışdır. Yeni metodu təcrübədən keçirən Freyd belə qənaətə gəlir ki, bütün nevrozların əsa- sında şüurdan sıxışdırılıb çıxarılmış xatirələr və təmin edilməmiş seksual meyllər durur. Tezliklə o, hipnozdan imtina edərək, yeni müalicə metodları işləyib hazırlamağa başlayır.

Freydin tədqiqatlarının nəticələri haqqında məlumatlar Avstriya paytaxtının elmi ictimaiyyəti tərəfindən hiddətlə qarşılandı. O dövrün tibb xadimləri nevrotik pozuntuların inkişafında seksuallığm rolunu qəbul etməyə hələ hazır deyildilər. Belə fərziyyələr XIX əsrin sonunda hakim olan mənəvi-etik baxışlara zidd gedirdi. Bir neçə il Freydin tədqiqatlarından söz açılmır, onların üzərindən sükutla keçilir. Yaranmış vəziyyətdə Freyd özünü kimsəsiz adada tənha qalmış Robinzon Kruzoya bənzədirdi. Elm aləmindən tamamilə təcrid olunmuş Freyd 1900-cü ildə psixoanalizin əsas müddəalarını özündə əks etdirən «Yu- xugörmələrin izahı»

fundamental əsərini yazır. Yuxuları öyrənərkən o, belə nəticəyə gəlir ki, zahirən mənasız, cəfəng görünməsinə baxmayaraq, onlar mühüm əhəmiyyət kəsb edirlər. Yuxuların funksiyası ayıqlıq zamanı realizə olunmamış arzu və meyllərin təmin olunmasıdır. Məsələn, aclıq duyan adam yuxuda üzərində müxtəlif yeməklər düzülmüş süfrə görə bilər. Bir çox hallarda istəklər şəxsiyyətin etik baxışları ilə bir araya sığmayan parlaq seksual mövzularla zəngin olduğundan onlar yuxuda tanınmaz dərəcədə dəyişdirilir. Freyd yuxugörmələrin və psixi xəstəliklərin simptomları arasında çoxlu oxşar mexanizmlər olduğunu göstərir. Bu baxımdan Freyd yuxuların izahını psixoanalizin vacib əhəmiyyəti kimi qiymətləndirir.

Bir il sonra işıq üzü görmüş «Gündəlik həyatın psixopatologiyası» əsəri səhv hərəkətlərin, yanlış sözlərin, yazıların meydana çıxmasına, əşyaların və adların unudulmasına həsr olunmuşdur. Burada Freyd çoxlu misallarla sübut edir ki, yaddaşın nəyisə xatırlaya bilməməsi hər hansı arzuolunmaz assosiasiyalar, xoşagəlməz hadisələrlə bağlıdır. Məsələn, səhv yığılmış telefon nömrəsi vacib danışığı təxirə salmaq cəhdi ilə əlaqədardır. Bəzən sadə, ilk baxışdan mənasız görünən yanlış sözlər bu və ya digər obyektə gizli meyli, yaxud mənfi münasibəti bildirir.

1902-ci ildə Freydin ətrafında gənc və istedadlı həkimlərdən ibarət məsləkdaşlar qrupu toplanır. Bu andan etibarən psixoanalizin zəfər yürüşü başlanır və 5 ildən sonra bu təlim Avstriyadan çox-çox uzaqlarda özünə yer tapır. Klassik alman psixiatriyasının banilərindən biri E. Blöyler Freydə məktub göndərir. İsveçrədə K.Yunq psixoanaliz cəmiyyəti təşkil edir. Buna bənzər cəmiyyətlər K.Abrahamın başçılığı altında Almaniyada və Ş.Ferençinin rəhbərliyi ilə

Macarıstanda yaranır. Bir-birinin ardınca Freydin əsərləri nəşr olunur: *«Seksuallıq nəzəriyyəsi üzrə üç oçerk» - (1905), «İsteriyanın analizindən bir parça» - (1905), «Hazırcavablıq və onun şüursuzluğa münasibəti» - (1905).* Bu əsərlərdə psixoanaliz təlimini təsdiqləyən və inkişaf etdirən çoxlu faktlar nəzərdən keçirilmişdir.

1909-cu ildə Freyd S. Xollun ABŞ-a dəvətini qəbul edərək Vorçes- ter Universitetində mühazirələr tsikli ilə çıxış edir. O, burada müvəffəqiyyət qazanır və özünün fədakar tərəfdarlarını tapır. Amerika psixologiyasının qocaman xadimi Uiliyam Ceyms Freydi bağrına basaraq demişdi: *«Gələcək sizinlədir».* Bütün bunlara baxmayaraq, artıq 1910-cu ildə psixoanaliz üzrə Birinci Beynəlxalq Konqresdən sonra Freyd və onun yaxın məsləkdaşları arasında ciddi fikir ayrılığı yaranır. Alfred Adler, onun ardınca isə Karl Yunq öz müəllimlərindən uzaqlaşaraq, psixoanalizdə yeni cərəyanların əsasını qoyurlar. Birinci dünya müharibəsi ərəfəsində Freyd daha çox sosialogiya, estetika, pedaqogikanın müxtəlif aspektlərini psixoanaliz mövqeyindən işıqlandırmağa çalışır. *«Leonardo da Vinçi», «Psixoseksuallıq nəzəriyyəsi üzrə etüd», «Psixoanalizin elmi əhəmiyyəti», «Totem və tabu»* əsərləri bu qəbildəndir. Sonuncu əsər insan cəmiyyətinin qurulmasına, etik və dini anlayışların inkişafı, hüququn meydana gəlməsi və s. həsr olunmuşdur. Burada, həmçinin, Edip kompleksinin izahı verilmiş və şəxsiyyətin formalaşmasında ailə faktorlarının rolu qiymətləndirilmişdir. Dəhşətli fəlakət və görünməmiş insan tələfatına səbəb olmuş Birinci dünya müharibəsi Freydi psixoanalizin bir sıra müddəalarına yenidən baxmağa məcbur etdi. indi Freydə müraciət edən xəstələrdə nevrozlar seksual hisslər və düşüncələrlə deyil, müharibə dövrünün çətin sınaqları ilə əlaqədar idi. *«Məmnunluq prinsipinin o biri tərəfində»* əsərində *(1920)* Freyd

seksual instinkt qədər güclü olan, özünü və ya başqalarını məhv etməyə yönəlmiş ölüm instinktini təsvir edir. *«Kütlələrin psixologiyası və insan Məninin analizi» (1921), «Mən və O» (1923)* əsərlərində Freyd şəxsiyyətin strukturunu açıqlamağa səy göstərir. O, həmçinin psixi instansiyaları - O, Mən, Fövqəl-məni - ayırd edərək, individual xüsusiyyətləri etnik və sosial qrupların davranışı ilə əlaqələndirməyə çalışmışdır.

Ömrünün son onilliyində Freyd fəal işdən uzaqlaşmış, fəlsəfə, mədəniyyət və dinin analizi ilə məşğul olmuşdur. Onun baxışları *«Bir illüziyanın gələcəyi» (1927)* və *«Moisey və təkallahlılıq» (1939)* məqalələrində öz əksini tapmışdır. 1938-ci ildə Avstriyanın işğalından sonra Freyd təqiblərə məruz qalır. Faşistlər onun bütün əmlakını, o cümlədən kitabxanasını müsadirə edirlər. Freydin dörd bacısı həbs düşərgəsində həlak olur. Yalnız Amerikanın Fransadakı səfirliyinin vasitəçiliyi və Psixoanalitik cəmiyyətlərin ödədiyi böyük məbləğdə rüsum Freydə İngiltərəyə mühacirət etməyə imkan verdi. Burada Freyd 21 sentyabr 1939-cu ildə 83 yaşında vəfat etdi.

**Neofreydizm**

Hələ Freyd sağ ikən onun tələbələrindən bəziləri insan seksuallığı- nın həlledici əhəmiyyət daşıdığını iddia edən müəllimlərinə qarşı çıxış edirdilər. Söhbət ilk növbədə *Karl Qustav Yunqdan (1875-1961)* gedir. Hələ psixoanaliz nəzəriyyəsi ilə tanış olmazdan əvvəl Yunq kəşf etdiyi assosiativ testi ilə məşhurlaşmışdı. Freydlə işləyən müddətdə Yunq psixoanaliz metodlarını psixi xəstəliklər klinikasında tətbiq etməyə başladı. Onun yuxuların izahı haqqında yazmış olduğu əsərləri böyük əks-səda doğurdu. Lakin cinsi meylin şəxsiyyətin əsası və nevro- tik konfliktin mənbəyi kimi qiymətləndirilməsi məsələsində Freydlə razılığa gələ bilməməsi bu iki alimin bir-birindən uzaqlaşmasına səbəb oldu. Gələcəkdə Yunq *«Analitik psixologiya»* adlandırdığı yeni cərəyanın əsasını qoyur. Yunqun baxışlarına əsasən libidonu enerjiyə aid olan bir anlayış kimi başa düşmək lazımdır. Buna müvafiq olaraq, libido təkcə seksual deyil, istənilən digər tələbatların da ödənilməsinə yönələ bilər.

Yunqun nəzəriyyəsində digər maraqlı məqam *«kollektiv şüursuzluq haqqında təlimdir.* Əgər Freyd şüursuzluğu ayrılıqda götürülmüş şəxsiyyətin məhsulu kimi qəbul edirdisə, Yunqa görə şüursuzluq ümumbəşər tarixi və hətta tarixəqədərki dövrü özündə əks etdirən, insanın mədəni və irqi mənsubiyyəti ilə bağlı olan gizli xatirələrdən ibarətdir. Yunq göstərir ki, şüursuzluq strukturca arxetiplərdən - daxili təsəvvür və xəyallardan təşkil olunmuşdur. Arxetiplərə müvafiq olaraq bizim reallığa münasibətimiz müəyyənləşir. Məsələn, kollektiv şüursuzluqdan gələn ananın daxili obrazı yeni doğulmuş körpəni anası ilə real münasibətlərə hazırlayır. Həmçinin əvvəlki nəsillərin toplamış olduğu kollektiv təcrübəni özündə əks etdirən ata, qəhrəman, başçı və s. arxetipləri mövcuddur.

Şəxsiyyətin strukturunu müəyyən edən bir neçə arxetip daha mühüm əhəmiyyət kəsb edir. Bunlara «persona» - sosial mühitin tələbləri ilə fərdi tələbatı uzlaşdırmağa çalışan zahiri imic; «anima» və «animus» - insanda kişi və qadın başlanğıcları xarakterizə edən anlayış; «kölgə» - heyvani instinktləri özündə birləşdirən anlayış və «özününkü» - şəxsiyyətin mərkəzi olub bütün tendensiyaları tarazlaşdıran anlayışlar aiddir.

Yunq psixikanın 4 əsas funksiyasını göstərmişdir: *təfəkkür, emosiyalar, duyğular və intuisiya.* Bunların idarəsi daxili aləm *(introversi- ya)* və ya xarici aləm *(ekstroversiya)* vasitəsilə həyata keçirilir. Buna əsaslanaraq, Yunq xarakterlərin yeni tipologiyasını təklif etmiş və iki şəxsiyyət tipi ayırd etmişdir: introvert *(özünə yönəlmiş, qapalı)* və ekstrovert *(xaricə yönəlmiş sosial fəallığa meylli).* Əlkimyanın tarixindən götürülmüş bu anlayışlardan istifadə edərək, Yunq analitik terapiyaya öz modifikasiyasını vermişdir: *Müalicə «özününkü»nün açıqlanması və şüurun genişləndirilməsindən ibarətdir.* Yunqun terapiyasında patologiya zamanı şəxsiyyətin tamlığının pozulmasını göstərən yuxuların izah olunmasına xususi diqqət verilir.

Freyddən uzaqlaşmış psixoanalizin digər görkəmli nümayəndəsi Alfred Adlerdir *(1870-1937).*«Individual psixologiya» adlanan təlim məhz onun adı ilə bağlıdır. Freyddən fərqli olaraq, Adler şəxsiyyətə təsir edən faktorlardan bioloji deyil, sosial faktorları ön plana çəkir. Adlerin təliminin əsasında *«natamamlıq kompleksi»,* kompensasiya, ifrat kompensasiya anlayışları durur. Belə ki, bədən orqanlarının inkişafında həqiqi və ya mövhumi qüsurlar insanda natamamlıq hissi əmələ gətirir. Onu aradan qaldırmaq məqsədi ilə şəxs şüurlu və ya şüursuz surətdə özünün yaradıcılıq imkanlarını səfərbər edir. Məsələn, alçaq boylu adamlar

cəmiyyətdə mənsəb və hörmət qazanmağa can atır, səhhəti zəif olanlar inadkarlıqla idmanla məşğul olaraq öz qüsurlarını kompensasiya etməyə çalışırlar. Kompensasiya müvəffəqiyyətsizliyə uğradıqda nevrotik pozuntular meydana çıxır - insan xəstəliyin köməyi ilə özünə hüsn-rəğbət qazandırmağa çalışır. Bəzən ifrat konsepsiya meydana çıxdığı hallarda həqiqi və ya təsəvvür olunan qüsur həddən artıq güclü təxəyyülə gətirir ki, bu da müstəsna nailiyyətlər şəklində özünü büruzə verir. Yalnız əlverişli sosial münasibətlər zəminində insan natamamlıq hissiyyatına üstün gələ bilər. Əks halda şəxsiyyəti məğlubiyyətin etirafından süni surətdə müdafiə edən nevrotik simptomlar meydana çıxır.

Adler həmçinin ailə daxilində uşaqların rəqabətli mübarizəsinə xüsusi əhəmiyyət verirdi. Onun gəldiyi qənaətə görə, ailədə böyük uşaqlar ikinci uşağın dünyaya gəlməsindən güclü narahatlıq hissi keçirirlər, çünki onlara göstərilən diqqət və qayğıdan qismən məhrum olurlar. ikinci uşaqlar öz növbəsində, adətən, özlərindən böyükləri üstələməyə çalışırlar. Ailənin sonbeşikləri isə bir qayda olaraq, ərköyün tərbiyə olunurlar.

Belə ailədaxili rəqabət sonradan sosial maraqlar və şəxsi məqsədləri tarazlaşdıran *«yaşayış üslubumnun* inkişafını müəyyən edir. Buna baxmayaraq, Adlerin işləyib hazırlamış olduğu terapevtik model əsas məqsəd kimi keçmiş hadisələrin, münaqişələrin araşdırılması, yeni *«yaşayış üslubumun* hazırlanması və şəxsin sosial qrupa qaytarılmasını ön plana çəkir. Bu metodika psixoanalitik müalicədən çox pedaqoji işi xatırladır.

Uzun illər Freydin ənənələrinə sadiq qalan, lakin sonralar ondan uzaqlaşan psixoanalizin daha bir nümayəndəsi *Otto Rankdır (18841939).* Onun freydizmdən

uzaqlaşmasının səbəbi nevrozların inkişafında Edip kompleksini qəbul etməməsi olmuşdur. Freyddən fərqli olaraq, Rank uşağın doğularkən aldığı sosial travmanı aparıcı amil hesab edirdi. Rankın fikrincə, infantil seksuallıq doğum zamanı yaranmış təşvişə qarşı ikincili xarakter daşıyır. *Məsələn,* Ranka görə, mazoxizm doğuş zamanı duyulan ağrının ekvivalenti, sadizm isə uşağın bətndaxili həyatdan ayrılmasına qarşı pretraz reaksiyasıdır. Uşağın sonrakı inkişafı fərdi xu-susiyyətlərin meydana çıxması ilə bağlıdır. Özünü şəxsiyyət kimi müəyyənləşdirən insan «yox» sözünü işlədir və bununla da öz iradəsini ifadə etmiş olur, lakin öz iradəsini həyata keçirən şəxsdə nədəsə imtina etdiyi şəxsə qarşı günah hissi yaranır. ilkin təşvişi xatırlayan şəxs qorxur ki, onu ana bətnindən qovduqları kimi ailədən də qovarlar. Nəticədə insanın özünütəsdiq imkanları məhdudlaşır. Şəxsiyyətin inkişafında Rank üç mərhələ ayırd edir:

*1.* Oz tələbatlarını təmin etmək;

*2.* Ozünün və özgələrinin tələbatları arasında münaqişə;

*3.* Avtonom yaradıcılıq «Mən»inin formalaşması.

Öz müşahidələrinə əsaslanan Rank psixoanalitik terapiyanın yeni formasını təklif etdi. Müalicənin əsas məqsədini Rank inisial təşvişi aradan qaldırmaqda və günah hissi doğurmadan şəxsi iradəni həyata keçirməkdə görürdü. iradənin həyata keçirilməsi geniş sərbəstlik qazanmaq, indiki və gələcək hadisələri analiz etməkdə özünü göstərirdi.

Psixoanalitik fikrin yeni inkişafı 40-50-ci illərə təsadüf edir. ikinci dünya müharibəsi ərəfəsində psixoanalizin bir çox xadimləri Amerikaya mühacirət

etdilər. O illərdə mövcud olan iqtisadi-siyasi vəziyyət psixoanalizin nəzəriyyə və praktikasına yenidən baxılmasını tələb edirdi. Pasiyentlər və onların şikayətləri Freyd və onun həmkarlarının qarşılaşdığı hallardan köklü şəkildə fərqlənirdi. iqtisadi böhranın - *«Böyük Depressiya»nrn* nəticələri: *aldadılmış hisslər, intihar «epidemiyaları», Hitler faşizminin və Stalin kommunizminin yaxınlaşmaqda olan təhlükəsi, işğal olunmuş ərazilərdən gələn qaçqınlar* — bütün bunlar insanların psixologiyasında dərin iz buraxmaya bilməzdi. Bu amillər psixoanalizdə infantil seksuallıq konsepsiyasından imtina edib diqqəti nevrozlara səbəb olan sosial şərait üzərində cəmləşdirməyi şərtləndirdi.

Karen Horni *(1885-1953)* nevrozların səbəbini pasiyentlərin durmadan dəyişən sosial şəraitə uyğunlaşa bilməmələri və potensial imkanlarla real nəticələr arasında uçurumun əmələ gəlməsi ilə əlaqələndirirdi. Valideyn himayəsindən, qayğı və nəvazişdən məhrum olan uşaq, özünü tənha və köməksiz hiss etdiyi kimi, təhlükəsizlik hissini itirmiş yetkin insan da dünyada özünü aciz və zəif hiss edir. Məhz təhlükəsizliyə nail ola bilməməklə bağlı yaranan təşviş nevrozların əsasını təşkil edir.

Seksual pozuntular və aqressiv davranış isə həmin təşvişin nəticəsi kimi izah olunur. Horninin fikrincə, artmaqda olan təşvişdən qorunmaq üçün insanlara tərəf hərəkət, insanlardan uzaqlaşmağa doğru hərəkət və insanların əleyhinə doğru hərəkət meydana çıxa bilər. Bu istiqamətlərdən hər hansı birinin üstünlük təşkil etməsi nevrotik şəxsiyyəti formalaşdırır. Bu zaman ya xidmətkeş, hamıya rəğbət göstərən adam, ya cəmiyyətdən ayrı düşmüş, soyuq təbiətli insan, ya da hökmlü,

aqressiv şəxsiyyət formalaşır. Horninin qadın seksuallığına həsr olunmuş işləri böyük şöhrət qazanmışdır. O, haqlı olaraq göstərirdi ki, psixoanaliz kişilər tərəfindən işlənib hazırlandığından qadınların psixoseksual inkişafını əks etdirən bir çox aspektlər düzgün izah olunmamışdır. Hor- ni pasiyentin öz problemlərini həll etmək üçün seçdiyi yolu analiz etməyi təklif etmiş və bununla psixoanaliz texnikasını xeyli dəyişmişdir.

Horninin baxışları bir çox məqamlarda Erix Fromun *(1900-1980)* ideyaları ilə səsləşir. Müasir cəmiyyəti tarixi inkişafda təhlil edən From belə bir qənaətə gəlir ki, insan fərdi azadlığa nail olduqca təhlükəsizlik hissini itirir. Odur ki, itirilmiş təhlükəsizlik hissini qaytarmaq məqsədi ilə şəxsiyyət «azadlıqdan qaçma» patoloji mexanizmlərinə əl atır. Fromun aqressiv və auto-aqressiv davranışa həsr etdiyi əsərləri böyük müvəffəqiyyət qazanmışdır. *«İnsanın ruhu», «İnsan destruktivliyinin anatomiyası»* kitablarında From müxtəlif tarixi şəxsiyyətlər - Hitler, Himler, Stalini misal gətirərək destruktiv davranışın müxtəlif formalarını araşdırır. Fromun öz əsərlərində nağıl və əfsanələrə müraciət etməsi də çox böyük maraq doğurur. Freyddən fərqli olaraq, From burada seksual deyil, sosio-psixoloji və mədəni-tarixi aspektləri ön plana çəkir. Fromun baxışları daha ətraflı şəkildə aqressiya və suisidə həsr olunmuş fəsildə əks edilmişdir. Psixoterapiyanın əsas məqsədini From insanın mənliyinə nüfuz etmək və onun yaradıcı qüvvələrini neqativ amillərdən azad etməkdə görürdü.

Müasir psixoanalizin formalaşmasında Harri Stek Sallivan *(18921942)* böyük rol oynamışdır. Sallivan Freyd nəzəriyyəsinə yeni baxışlar gətirmiş ilk Amerika analitiki olmuşdur. Sallivana görə şəxsiyyət konsepsiyası hipotetik

konstruksiyadır. Həqiqətən cərəyan edən real qarşılıqlı münasibətlərdir. Şəxsiyyətin fərdi təhlükəsizliyi ilə bağlı təşviş hissini Sallivan insanlar arasındakı qarşılıqlı münasibətlər baxımından qiymətləndirirdi.

insanın təşəkkül tapması onun valideynləri ilə qarşılıqlı münasibətləri kontekstində baş verir. Bu münasibətlər baxımından insanda özü haqqında rəy formalaşır *(məsələn, ana narahat olarkən, onun təşvişi möcüzəli şəkildə uşağa ötürülür və sonradan hər dəfə təhlükəsizliyinin pozula biləcəyini duyduqda təşviş meydana çıxır).* Şəxsiyyətin təşəkkül prosesinin birinci mərhələsində reallıq qeyri-mükəmməl qavranılır *(protaktik təfəkkür).* Sonradan bu, simvolik təfəkkürlə əvəz olunur, o da öz növbəsində yerini sintaktik təfəkkürə verir. Bir tərəfdən şəxslər arasında qarşılıqlı münasibətlər yaratmaq tələbatı, digər tərəfdən təhlükəsizliyi itirmək qorxusu bu prosesi hərəkətə gətirir. Ona görə də Sallivan psixoanalitik terapiya fokusunda pasiyentin ətrafdakılara qarşı münasibətini qiymətləndirməyi təklif etmişdi. Psixoterapevtik prosesdə həkimin xəstəyə qarşı fəal mövqeyi həlledici rol oynayır.

Müasir psixoanalitiklərin baxışlarında olan fərqlərə və Freydin ilkin nəzəriyyəsindən xeyli uzaqlaşmalarına baxmayaraq, psixoanaliz təliminin psixikanın struktur quruluşu, psixi proseslərin qeyri-şüuri xarakteri, psixoloji müdafiə mexanizmləri və s. haqqındakı müddəaları bu günə kimi öz əhəmiyyətini saxlamaqdadır.